## Riyaziyyat

1. Beş ədədin ədədi ortası 12-yə bərabərdir. Bu ədədlərə yeni bir ədəd əlavə etdikdən sonra ədədi orta 15-ə bərabər oldu.Əlavə olunmuş ədədi tapın.
   A) 24 B) 30 C) 32
   D) 42 E) 45

2. $m = 5 - n$, olarsa, $3m + 3n + 1$ ifadəsinin qiymətini tapın.
   A) 12 B) 16 C) 13
   D) 19 E) 17

3. $\alpha$ iti , $\beta$ düz, $\gamma$ kor bucaq olarsa, $|\alpha-\beta|+|\gamma-\alpha|+|\beta-\gamma|$ ifadəsini sadələşdirin.
   A) $2\beta - 2\alpha$ B)$2\gamma - 2\alpha$ C) $2\beta$
   D) $2\gamma - 2\beta$ E) $2\gamma$

4. $a$ || $b$ olarsa, şəklə əsasən $\alpha$ bucağını tapın.




   A) $28^0$ B) $32^0$ C) $44^0$
   D) $24^0$ E) $46^0$

5. Ədədi 10 dəfə azaltdılar. Ədəd neçə faiz azaldı?
   A) 90% B) 20% C) 80%
   D) 10% E) 50%

6. $\alpha$ və $\beta$ bucaqları uyğun tərəfləri paralel olan bucaqlardır. $\alpha + \beta = 190^0$ olarsa, $\alpha$ bucağına qonşu olan bucağı tapın.
   A) $85^0$ B) $75^0$ C) $105^0$
   D) $65^0$ E) $100^0$

7. Düz xətt üzərində $A, B, C, D$ nöqtələri ardıcıl olaraq qeyd olunmuşdur. $AC = 12\ sm, BD = 13\ sm, AD = 18\ sm$ olarsa, $BC$-nin uzunluğunu tapın.
   A) 5 sm B) 6 sm C) 7 sm
   D) 8 sm E) 9 sm

8. $\frac{a^2-4a+17}{2}$ ifadəsinin ən kiçik qiymətini tapın.
   A) 6,5 B) 13 C) 4,5
   D)9 E) 5,5

9. $a, b$ natural ədədləri üçün $a : b = 2 : 7$ və ƏKOB $(a, b)$ – ƏBOB $(a, b)$ = 52 olarsa, $a+b$ cəmini tapın.
   A) 63 B) 72 C) 36
   D) 90 E) 81

10. $\frac{n+12}{n}$ və $\frac{n-20}{n}$ kəsrlərinin qiymətləri tam ədədlər olarsa, $n$ natural ədədinin ala biləcəyi qiymətlər hasilini tapın.
   A) 7 B) 8 C) 10 D) 9 E) 6

11. $5 - \sqrt{67}$ ədədinin tam hissəsinin kvadratını tapın.
   A) 16 B) 9 C) 36
   D) 25 E) 4

12. İki düz xəttin kəsişməsindən əmələ gələn bucaqlardan ikisinin fərqi 48° olarsa, böyük bucağı tapın.
   A) $134^0$ B) $122^0$ C) $118^0$
   D) $108^0$ E) $114^0$

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam1 Kaspi

13.Eyler-Venn diaqramına görə $A/B$ çoxluğunun elementlərinin sayını tapın.




A) 3 B) 4 C) 5 D) 6 E) 7

14.$|a-3|+|4-b|=0$ olarsa, $\frac{a+b}{2a-b}$ ifadəsinin qiymətini tapın.
A) 2,5 B) 3,5 C) 3,8
D) 4,4 E) 5,6

15. $9a=\overline{2b9}$ bərabərliyindən $a$+$b$ cəmini tapın. $(a\in N)$.
A) 28 B) 38 C) 40
D) 24 E) 42

16.$1,3(a3b)=1,ca(c58)$ olarsa, a+b+c cəmini tapın.
A) 8 B)11 C)14 D) 16 E)12

17.Uzunluğu 54 sm olan AB parçasının üzərində C nöqtəsi qeyd olunub.AC parçasının uzunluğu BC parçasının uzunluğundan 20% kiçik olarsa, AC-nin uzunluğu neçə sm-dir?
A) 24 B) 22 C) 20
D) 26 E) 28

18.$A=\{4;7;8;9;12;13\}$ çoxluğunun dörd elementli alt çoxluqlarının sayını tapın.
A) 18 B) 16 C) 15 D) 12 E) 9

19.$(3x^2+5x)^n(x^3+x+2)^{10}$ çoxhədlisinin dərəcəsi 42 olarsa, $3x^{n+1}y^5$ birhədlisinin dərəcəsini tapın.
A) 17 B) 15 C) 12 D) 10 E) 9

20.Hesablayın: $\frac{12^9\cdot5^8}{15^7\cdot2^{19}}$
A) 17 B) 13,5 C) 35
D) 23,5 E) 22,5

21.$a=1,2\cdot10^7,\ b=9\cdot10^{-3}$ olarsa, $ab$ hasilini standart şəkildə yazın və tərtibini tapın.
A) 7 B) 5 C) 9
D) 10 E) 6

22.$a-b=6$ və $a\cdot b=2$ olarsa, $\frac{a}{b}+\frac{b}{a}$ ifadəsinin qiymətini tapın.
A) 19 B) 20 C) 23
D) 17 E) 15

***Açıq tipli test sualları:***

23.$n(A\cup B)=28$ , $n(A\backslash B)=12$, $n(B\backslash A)=10$ olarsa, $n(A\cap B)$ -ni tapın.

24. Şəkildə $d_1 \parallel d_2 \parallel d_3$ və $\alpha=55°$ olarsa, $\gamma-\beta$ fərqini tapın.




Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
t.me/BirlikTeam1 kaspi

25. $n$-nin neçə natural qiymәti $\frac{1}{8} < \frac{n}{72} < \frac{16}{9}$ şərtini ödəyir?

26. $a$ natural ədədinin müxtəlif sadə vuruqlarının sayı 3-ə , sadə vuruqlarının sayı isə 5-ə bərabərdir. $a$-nın ən kiçik qiymətini tapın.

27. Verilmiş kəsrlər üçün uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. 5,3 və –5,7 | a. tam hissələrinin hasili 18-dir. |
| 2. –2,4 və –5,2 | b. kəsr hissələri bərabərdir. |
| 3. –3,1 və 4,2 | c. tam hissələrinin cəmi –1-dir. |
| | d. kəsr hissələrinin cəmi 1,4 dür. |
| | e. tam hissələrinin hasili –16-dır. |

***Situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları cavablandırın.***

Məktəb müəyyən sayda şagirdlə riyaziyyat və fizika olimpiadasına qatılır.Olimpiadaya qatılan şagirdlərin sayı həm 9-a , həm də 6-ya böldükdə qalıqda 2 alınan ən kiçik ikirəqəmli ədəddir.

28. Olimpiadaya qatılan oğlan şagirdlərin sayı qız şagirdlərin sayından 3 dəfə çox olarsa,olimpiadaya neçə oğlan şagird qatılıb?

29. Bu məktəbdən yalnız bir fəndən olimpiadada iştirak edənlərin sayı 16 nəfərdir.Riyaziyyat olimpiadasında iştirak edənlərin sayı fizika olimpiadasında iştirak edənlərin sayından iki dəfə çox olarsa,riyaziyyat olimpiadasında neçə şagird iştirak edib.

30. Qızların 40%-i , oğlanların 60% -i mükafatlandırılarsa, məktəbin olimpiadada iştirak edən şagirdlərinin neçə faizi mükafatlandırılar?

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

t.me/BilikTeamKaspi

## Coğrafiya

31. Miqyas, məqsəd və məzmundan asılı olaraq obyektlərin seçilməsi və ümumiləşdirilməsi adlanır:
A) kartoqrafik generalizasiya
B) kartoqrafik proyeksiya
C) kartoqrafik şəbəkə
D) kartometrik təhlil
E) kartoqrafik modelləşdirmə

32. İki məntəqə arasında yolun uzunluğu xəritədə 7,4 sm –dir. Xəritənin xətti miqyasına əsasən bu yolun həqiqi uzunluğunu hesablayın.




A) 25 km B) 37 km C) 148 km
D) 111 km E) 74 km

33. Samara ($53^0$ şm.e. $50^0$ ş.u.) ilə Bakı ($40^0$ şm.e. $50^0$ ş.u.) şəhərləri arasında müvafiq olaraq hər iki istiqamətdə uçan təyyarələrin hərəkət etdikləri azimutları müəyyən edin.
A) 315° və 135° B) 270° və 360°
C) 180° və 0° D) 225° və 45°
E) 90° və 270°

34. Uyğunluğu müəyyən edin.
a- enini, uzunluğunu və yerini müəyyən etmək olur
b- uzunluğunu və yerini müəyyən etmək olur
c- yalnız yerini müəyyən etmək olur




A) a- 2,6,8 ; b- 3,4,7 ; c- 1,5
B) a- 2,5,6 ; b- 3,4 ; c- 1,7
C) a- 1,3 ; b- 2,4,6 ; c- 5,7,8
D) a- 5,6 ; b- 3,4 ; c- 1,8
E) a- 1,4 ; b- 2,5 ; c- 3,6,7

35. Sahə təhrifinin daha çox olduğu yarımadaları müəyyən edin.




A) 3, 5, 6 B) 1, 2, 4 C) 2, 4, 6
D) 2, 5, 6 E) 1, 3, 5

36.Kəsmə yüksəklik 100 m-dir. Çökəkliyin dərinliyini hesablayın.




A) 50 m B) 300 m C) 100 m
D) 350 m E) 250 m

37.Aşağıda hansı səyyah və coğrafiyaşünasdan bəhs edilir ?

*- Şimali Amerikanın və Antarktidanın təsviri ilk dəfə onun xəritəsində əksini tapmışdır*

*- Dənizçilik qanunlarından bəhs edən "Kitabi Bəhriyyə" əsərinin müəllifidir.*

A) Merkator B) A. Vespuççi
C) A. Humbolt D) H. Stenli
E) Piri Rəis

38.Turistlər düşərgədən 135° azimutla 2 km gedəndən sonra istiqaməti şimal-şərqə dəyişərək daha 2 km yol getdilər. Onlar düşərgəyə ən qısa yolla hansı azimut və istiqamətlə qayıtmalıdırlar?

A) 180° C B) 45° , ŞmŞ C) 0°, Şm
D) 270°, Q E) 225°, CQ

39.Səyahətçi A məntəqəsindən (60° şm.en; 60° ş.u.) əvvəlcə 180° azimutla 2220 km, sonra isə 270° azimutla 1708 km hərəkət edərək son məntəqəyə çatmışdır. Həmin məntəqənin coğrafi koordinatlarını xəritə-sxemə əsasən müəyyən edin.




A) 20° şm.e. və 140° ş.u.
B) 20° şm.e. və 80° ş.u.
C) 40° şm.e. və 40° ş.u.
D) 20° şm.e. və 80° q.u.
E) 40° şm.e. və 80° ş.u.

40.Doğru olan ifadələri müəyyən edin.

1. Yerin diametri 40076 km – dir.
2. Yerin quru səthinin sahəsi 149 mln. km$^2$ –dir.
3. Yer səthində çəkilə bilən ən böyük çevrənin uzunluğu 12756 km –dir.
4. Yer səthindən keçməklə qütbləri birləşdirən ən qısa xətlərin uzunluğu 20000 km-dir.
5. Bütün meridianlarda 1$^0$ –lik qövsün uzunluğu 111,1 km-ə bərabərdir.
6. Yerin qütb radiusunun uzunluğu 6378 km-dir.

A) 1, 3, 4 B) 3, 4, 6 C) 2, 4, 5
D) 1, 2, 5 E) 2, 3, 4

41. Topoqrafik planda A və C nöqtələrinin hündürlük fərqi 10 m olarsa, B nöqtəsinin hündürlüyünü təyin edin.




A) 10 m B) 80 m C) 100 m
D) 40 m E) 20 m

42.Cənub qütbündən hərəkət edən müşahidəçi hansı istiqamətdə getmiş olar?

A) şərqə
B) cənuba
C) şimala
D) qərbə
E) cənub- şərqə

43.Təpənin mütləq hündürlüyünü və kəsmə yüksəkliyi müəyyən edin.




A) 57 m ; 15 m
B) 147 m ; 30 m
C) 57 m ; 30 m
D) 147 m ; 15 m
E) 90 m ; 45 m

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
t.me/BilikTeam1 Kaspi

44. Uzunluğu 105 km olan **Yevlax –Ağdam-Xankəndi** dəmiryolu xəritədə 21 sm-ə bərabərdir. Bu xəritədə sahəsi 46 sm$^2$ olan Ağdam rayonunun həqiqi sahəsini hesablayın.
A) 1150 km$^2$   B) 230 km$^2$   C) 48 km$^2$
D) 460 km$^2$   E) 966 km$^2$

45. Miqyası 1: 80 000 000 olan xəritədə A və B məntəqələri arasında məsafə 9 sm-dir. Təhrifi hesablayın.




A) 2480 km   B) 0 km   C) 256 km
D) 4692 km   E) 368 km

46. 26$^0$ - 36$^0$ şm.e. və 47$^0$ - 57$^0$ ş.u. arasında yerləşən coğrafi koordinatlar hansı sahələrə düşür?




A) II və IV   B) yalnız I   C) yalnız III
D) I və II   E) III və IV

47. Antarktika adlanır :
A) cənub qütb sahəsi
B) Sakit okeanda adalar qrupu
C) şimal qütb sahəsi
D) təbii şəraiti əlverişsiz olan ərazilər
E) əlverişli təbii şəraiti olan ərazilər

48. Azərbaycanın 1: 3 700 000 miqyaslı “Havanın orta illik temperaturu” xəritəsi məzmununa və miqyasına görə hansı qrupa aiddir, xəritədə hansı təsvir üsulundan istifadə olunub ?
A) Tematik; kiçikmiqyaslı; keyfiyyət fonu
B) Tematik; ortamiqyaslı; kartoqram
C) Ümumcoğrafi; böyükmiqyaslı; izoxətlər
D) Tematik; kiçikmiqyaslı; areal
E) Ümumcoğrafi; ortamiqyaslı; nöqtələr

49. M.V.Lomonosovun coğrafiya sahəsində xidməti:
A) “İqtisadi coğrafiya” sözünü elmə gətirmiş və onun əsas istiqamətlərini vermişdir
B) Venera planetində atmosferin olmasını aşkar etmişdir
C) müxtəlif məzmunlu xəritələr əsasında ilk dəfə “Dünya Atlası”nı tərtib etmişdir
D) istiliyin molekulyar-kinetik nəzəriyyəsini irəli sürmüşdür
E) ilk dəfə şimal qütbünə çatmışdır

50. *B* məntəqəsinin *A*-dan 2 dəfə çox hündürlüyə malik olduğu sxemi müəyyən edin (Nəzərə alın ki, kəsmə yüksəklik 15 m-dir) .




51. Coğrafi obyekt və hadisələrin fərqli və oxşar xüsusiyyətlərinin təhlili əsasında yeni elmi nəticələrin əldə edilməsi metodu:
A) Tarixi
B) Müqayisə
C) Riyazi statistik
D) Kartoqrafik
E) Coğrafi modelləşdirmə

52. Hansı miqyaslı dünya xəritəsi divarda daha az yer tutar ?
A) 1: 25 000 000   B) 1: 22 000 000
C) 1: 27 500 000   D) 1: 20 000 000
E) 1: 37 000 000

53. Plana əsasən təyin etmək olar:
1. Çayın uzunluğunu
2. Obyektlərin yerləşdiyi istiqamətləri
3. Coğrafi uzunluğu
4. Səth örtüyünün xarakterini
5. Coğrafi enliyi
6. Zolaq (xətt) şəklində uzanan obyektlərin enini

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam_Kaspi

54.Coğrafi koordinatlar daxilində verilən əraziləri sahəsinə görə kiçikdən böyüyə doğru ardıcıl düzün.




55.“Qrafik təhlil” tədqiqat metoduna aid olanları seçin.
1. Coğrafi koordinatların təyini
2. Ərazinin şaquli kəsiyinin təsviri
3. İqtisadi göstəriciləri əks etdirən diaqramın qurulması
4. Əhalinin yaş-cins tərkibinin təsviri
5. Tematik xəritələrin oxunması
6. Azimut və istiqamətlərin təyini

56.Sürəti 800 km/saat olan təyyarə 5 saatdan sonra eniş etdi. Bu müddət ərzində təyyarənin getdiyi yol 1 : 20000000 miqyaslı xəritədə neçə sm-dir ?

57.Uyğunluğu müəyyən edin.
1. Sosial coğrafiya
2. Şəhər və landşaft planlaşdırılması
3. Rekreasiya coğrafiyası
a. Yaşayış və təsərrüfat yerlərinin səmərəli qurulması
b. Turizm ehtiyatları və istifadə yolları
c. Siyasi xəritənin formalaşması, siyasi proseslər
d. Təbii komponentlər arasında qarşılıqlı əlaqə, tarazlığın qorunması
e. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi

***Situasiya***

A (60° c.e  90° q.u) nöqtəsindən eyni meridian çevrəsi üzrə  hərəkətə başlayan səyyah əvvəl 180° azimutla, sonra isə 0° azimutla ümumilikdə 5555 km məsafə qət etmişdir. Onun çatdığı məntəqəyə əsasən tapşırıqları yerinə yetirin.

58.Səyyahın çatdığı məntəqənin koordinatlarını qeyd edin.

59.Yerləşdiyi materik hansı yarımkürələrdədir və bu materikin xəritəsi əsasən hansı proyeksiyada tərtib olunur ? (Cədvəldə qeyd edin)

| Materikin adı | Yerləşdiyi yarımkürələr | Materik xəritəsinin kartoqrafik proyeksiyası |
|---|---|---|
| | | |

60.Materikin və onun mərkəzi hissələrinin kəşf edilməsində xidmətləri olan səyyahların adını qeyd edin.

## Tarix

61.İbtidai icma quruluşunun e.ə III minilliyin axırlarından başlayan dövrü üçün xarakterikdir:
A) Təsərrüfatda kişi əməyinin ön plana keçməsi
B) Köçmə maldarlığın meydana gəlməsi
C) Əmlak və sosial bərabərsizliyin artması
D) Qarabağın dağlıq hissəsində zəngin mis yataqlarının aşkarlanması
E) Ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə olunması

62.Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Azərbaycan torpaqlarının Əhəməni imperiyasının tərkibində olması
b. Ekbatan şəhərinin II Kirin əmri ilə qarət edilməsi
c. Midiyada İskit ağalığının sona çatması
d. Əhəməni hökmdarlarının məğlubiyyəti ilə nəticələnən döyüşlərin baş verməsi
e. Əhəmənilərin Makedoniyalı İskəndər tərəfindən məğlub edilməsi
A) 1-c; 2-a,e; 3-d,e
B) 1-a,d; 2-c; 3-b
C) 1-b,c; 2-a; 3-d
D) 1-b; 2-e; 3-a,d
E) 1-e; 2-a,b; 3-d

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

t.me/BirlikTeam1 Kaspi

63.Xəritədə ştrixlənmiş ərazinin e.ə VI əsrinə aid xüsusiyyətləri müəyyən edin:



1. Əhalinin üsyanı nəticəsində tiranlığa son qoyulması
2. Borca görə köləliyə düşmüş əhalinin azad edilməsi
3. İlk Olimpiya yarışlarının keçirilməyə başlaması
4. Xalq tribunlarının seçilməyə başlaması
5. Respublika idarə üsulunun qurulması

A) 1,3,5 B) 1,2 C) 2,5
D) 1,3 E) 1,4,5

64.Mezolit və Erkən Tunc dövrləri arasındakı dövrlər üçün xarakterik ***deyil**:*
A) İnsanların qan qohumluğu əsasında birləşməsi
B) Toxa əkinçiliyinin inkişaf etməsi
C) İstehlak təsərrüfatının mövcud olması
D) Mingəçevir yaxınlığında Qaraca abidəsi
E) Sənət sahələrinin inkişaf etməsi

65.1847 və 1870-ci il kəndli əsasnamələri üçün ümumi cəhət ***deyil**:*
A) Sahibkar kəndlilərinə şamil edilirdi
B) Kəndli pay torpağını satın alıb şəxsi mülkiyyətinə çevirə bilərdi
C) Əsasnamədə torpaq mülkiyyəti, vergi və mükəlləfiyyətlərə aid məsələlər nəzərdə tutulmuşdu
D) Hər bir kəndliyə 5 desyatin yararlı torpaq verilirdi
E) Kəndli malcəhət vergisi ödəməli idi

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

İnfobirlik Team Kaspi

66.Verilən xüsusiyyətlərin aid olduğu ərazini müəyyən edin:
*- Dünya tarixinin ilk imperiyası burada yaranmışdı*
*- Tarixdə ilk yazılı qanunlar yaradılmışdı*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

67.Akkad imperiyasının mövcud olduğu dövrə aiddir:
A) Təkərin ixtira edilməsi
B) Şumerdə ilk şəhərlərin yaranması
C) Aşağı və Yuxarı Misir dövlətlərinin yaranması
D) Misirin zəifləyərək ayrı-ayrı hissələrə parçalanması
E) Mesopotamiyanın Kutilərin hücumlarına məruz qalması

68.Artabazd və Ariobarzanın fəaliyyəti üçün oxşar cəhətdir:
A) Midiya dövlətinin idarə edilməsi
B) Oktavian ilə diplomatik əlaqələrin mövcud olması
C) Arşakilər sülaləsinə mənsub olmaları
D) Roma qoşunlarının məğlub edilməsi
E) Selevkilərdən asılı vəziyyətə düşmələri

69.Uyğunluğu müəyyən edin:




A) 2,4,5 B) 1,2,3 C) 1,3,6 D) 2,4,6 E) 1,4,6

70.Albaniya əhalisi üçün xarakterik *deyil:*
1. Latın və yunan yazısı ilə tanış idi
2. Zevs, Helios, Selena tanrılarına sitayiş edirdilər
3. Kirəmitdən istifadə edilirdi
4. Məzdəkilər hərəkatının güclü hərəkətverici qüvvəsi sayılırdı
5. Əsas hissəsi Fanaaspa və Aqnazana şəhərlərində yaşayırdı.

A) 1,2 B) 1,4 C) 4,5 D) 3,5 E) 2,5

71.Hadisələri Albaniyanın paytaxt şəhərlərinin fəaliyyət göstərdiyi dövrə uyğunlaşdırın:
1. Qəbələ
2. Bərdə

a. Xristianlığın rəsmi dövlət dini elan edilməsi
b. Albaniyanın sasani mərzbanları tərəfindən idarə olunmağa başlaması
c. Sasanilərə qarşı azadlıq hərəkatının baş verməsi
d. Sasani-alban qoşunlarının Amid döyüşündə qalib gəlməsi

A) 1-a; 2-b,d B) 1-c,d; 2-a,b
C) 1-b,c; 2-a,d D) 1-b,d; 2-c
E) 1-a,d; 2- c,b

72.Eyni ildə baş vermişdir:
1. Xanabad manufakturasının fəaliyyətə başlaması
2. Rəhdar rüsumunun ləğv edilməsi
3. Rus kəndlilərinin Şimali Azərbaycana köçürülməsi haqqında fərman verilməsi
4. Alban katalikosluğunun ləğv edilməsi

A) 1,3 B) 2,4 C) 2,3 D) 1,4 E) 3,4

73.Mannanın e.ə VIII əsrin birinci yarısı və ikinci yarısı üçün oxşarlığı müəyyən edin:
A) Urartunun Mannaya yürüşlərinin baş verməsi
B) Mərkəzləşdirilmiş dövlət kimi fəaliyyət göstərməsi
C) Manna ərazilərinin I Rusa tərəfindən ələ keçirilməsi
D) Aşşurbanipalın yürüşlərinə məruz qalması
E) İranzunun düşməndən azad edilmiş vilayətləri Mannanın tərkibinə qaytarması

74.1840-cı il 10 aprel inzibati məhkəmə islahat layihəsinə əsasən yaradılan Xəzər vilayətinə daxil olmayan əraziləri müəyyən edin:




A) 3,7,8 B) 2,4,6 C) 2,3,4
D) 1,5,6 E) 3,4,7

75.Neolit dövrünə aiddir:
1. Əhalinin böyük bir hissəsinin oturaq həyata keçməsi
2. Rabitəli nitqin meydana gəlməsi
3. Torpağın toxa ilə yumşaldılması
4. Çaxmaqdaşı və dəvəgözü daşından hazırlanmış alətlərdən istifadə
5. İstehsal təsərrüfatına keçidin əsasının qoyulması

A) 1,2,3 B) 3,4,5 C) 2,4,5
D) 1,2,4 E) 1,3,4

76.1-ci və 2-ci mətndə bəhs edilən hökmdarlar üçün ümumi cəhəti müəyyən edin:

**Mətn 1**
Mauriya sülaləsinin ən qüdrətli hökmdarı bir sıra sahələrdə islahatlar aparmışdı. Ölkənin müxtəlif səmtlərində 33 kitabı qoydurmuş və tarixdə buddizmin əsas himayədarı və təbliğatçısı kimi yadda qalmışdı.

**Mətn 2**
Mərkəzi hakimiyyəti möhkəmləndirmiş, ordu islahatı keçirmişdi. Fit səsi çıxaran oxların düzəldilməsi də onun adı ilə bağlıdır. Ordu onluq, yüzlük, minlik və onminlik dəstələr şəklində təşkil edilmiş, nizam-intizam yaradılmışdı.

1. Sin sülaləsinə mənsub olmaları
2. Hun ordusunun məğlub edilməsi
3. E.ə III əsrdə vahid dövlətin əsasının qoyulması
4. Eyni əsrdə hakimiyyətdə olmaları

A) Yalnız 1 B) 3 və 4 C) yalnız 4
D) 1 və 3 E) 1 və 4

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
TimaBirlikTeam Kaspi

77.Çinin e.ə II minillik tarixi üçün xarakterikdir:
A) Koreya və Vyetnamın işğal edilməsi
B) Sin padşahının ölkəni vahid dövlətdə birləşdirməsi
C) Yazının-heroqliflərin meydana gəlməsi
D) Dəmir emalının başlanması
E) "Vuruşan padşahlıqlar dövrü"

78.Periklin fəaliyyətinə aid ***deyil:***
A) Afina vətəndaşlarının idarəetmədə iştirakının genişlənməsi
B) Hər bir vətəndaşın dövlət idarəçiliyində istənilən vəzifəni tuta bilməsi
C) Quldarlıq demokratiyasının çiçəklənməsi
D) 15 il ərzində strateq seçilməsi
E) Afina dəniz ittifaqının yaradılması

79.Səbəb – nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Səbəblər | Nəticələr |
|---|---|---|
| 1 | Kiçin Asiyadakı yunan şəhərlərinin Əhəmənilərə qarşı üsyanına Afina tərəfindən kömək edilməsi | I Daranın Yunanıstana hücumu |
| 2 | E.ə V əsrdə Afinada demokratiyanın bərqərar olması | Afina şəhərinin elm mərkəzinə çevrilməsi |
| 3 | Yunan şəhər-dövlətləri arasında müharibələrin baş verməsi | Makedoniya dövlətinin zəifləməsi |
| 4 | E.ə II minillikdə Balkan yarımadasının cənubunda vulkan püskürməsi | Mikena sivilizasiyasının dağılması |
| 5 | Əkin sahələrinin azlığı, əhalinin sayının artması, ticarətin inkişaf etməsi | Yunanların bir hissəsinin vətənlərini tərk edərək uzaq ölkələrdə məskunlaşaması |

A) 1,2,5 B) 1,3,4 C) 3,4,5
D) 1,2,3 E) 1,2,4

80.Uyğunluğu müəyyən edin:

Qədim Roma

| **1.** Respublika dövrü | **2.** İmperiya dövrü |
|---|---|
| **a.** Sezarın diktator elan olunması | **a.** Senatın səlahiyyətlərinin məhdudlaşdırılması |
| **b.** Germanların Romaya yürüşlərinin genişlənməsi | **b.** 12 lövhə qanunlarının qəbul edilməsi |
| **c.** Makedoniya və Yunanıstanın işğalı | **c.** Qulların öldürülməsinin qadağan edilməsi |

A) 1-a; 2-b,c B) 1-c; 2-a,b
C) 1-b,c; 2-a D) 1-a,c; 2-a,c
E) 1-a,c; 2-b,c

81.Roma poeziyasının "qızıl dövrü" hesab edilən əsrlərə uyğun gəlmir:
A) Roma imperiyasının qərb və şərq hissələrə bölünməsi
B) Qay Yuli Sezarın Romaya yürüşü
C) Misirin Romanın əyalətinə çevrilməsi
D) Kapuyadakı qladiator məktəbində qulların qiyamı
E) Sərkərdələr arasında vətəndaş müharibəsinin baş verməsi

82.Göstərilən xüsusiyyətlər aiddir:
- *Romanın ən əzəmətli binaların biri idi*
- *Burada Qladiator döyüşləri keçirilirdi*

A) Parfenon məbədi
B) Zəfər tağları
C) Kolizey amfitetrı
D) Panteon məbədi
E) Baş meydan Aqora

83.Pinçen döyüşündən sonra baş vermiş hadisələri müəyyən edin:
1. Mauriya sülaləsinə son qoyulması
2. Qərbi Hun dövlətinin süqutu
3. "Qırmızıqaşlılar üsyanı"
4. Çin səddinin tikintisinin başlanması
5. Hindistanın şimal-qərbinin Əhəməni tabeçiliyinə keçməsi

84.Xronoloji ardıcıllığı müəyyən edin:
1. III Vaçaqanın fəaliyyətinin sona çatması
2. Mihranilər süalaləsinin hakimiyyətə gəlməsi
3. I Xosrov Ənuşirəvanın islahat keçirməsi
4. Mani təliminin əsasının qoyulması

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam Kaspi

85.Misirin e.ə II minillik tarixinə aid xüsusiyyətləri müəyyən edin:
1. İlk yazının yaranması
2. Fələstin və Suriyanın işğal edilməsi
3. Pilləkən formalı ilk piramidanın tikilməsi
4. Suriya uğrunda Het dövləti ilə mübarizə aparılması
5. Fiv şəhərinin paytaxta çevrilməsi

86.Hadisə və nəticə əlaqələrinin doğru göstərildiyi cavabları müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Kutiərin Mesopotamiyada idarəçilyi yerli məmurlara həvalə etməsi | Kutilərin mövqeyinin zəifləməsi |
| 2 | Assurlar ilə Turukkilər arasında toqquşma | Şuşarra vilayətinin turukkilərin əlinə keçməsi |
| 3 | Assuriya hökmdarı III Salmanasarın Manna ərazisinə yürüşü | Sirdakka müqaviləsinin imzalanması |
| 4 | Şuandahul və Durdukka şəhərlərində üsyan | İranzunun Assuriyadan kömək istəməsi |
| 5 | Ahşerinin hakimiyyəti dövründə Mannanın güclənməsi | İskitlər ilə dostluq münasibətlərinin pozulması |

87.Uyğunluğu müəyyən edin:
1. Varaz Qriqor
2. I Şapur
3. II Vaçe
a. Dzirav döyüşündə Sasanilər ilə müttəfiq idi
b. Özünü Bizans imperatoru İraklinin vassalı elan etmişdi
c. III əsrdə hakimiyyətdə idi
d. Zərdüştilikdən imtina edərək Sasani hakimiyyətindən çıxmışdı

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

Əhəməni dövlətinin süqutu yaxınlaşdıqca satraplar mərkəzi hakimiyyətdən üz döndərib tabe olmamağa çalışırdılar. Mərkəzi hakimiyyətin böhran keçirdiyi zaman ondan üz döndərən satraplardan biri də Qərbi Midiya olmuşdur. Bu satraplığın hakimi görkəmli sərkərdə olan Atropat idi. O, Əhəmənilərin son şahı dövründə Kiçik Midiyanın hakimi idi. Son şahın hakimiyyət başına keçməsi Filippin başçılığı ilə yunan əyalətlərinin Makedoniya ətrafında birləşdirilməsi dövrünə təsadüf etmiş və beləliklə, Makedoniya İranın ən güclü rəqibi olmuşdu. Diodorun göstərdiyinə görə Əhəməni şahı Filipp ilə müharibə etməyə hazırlaşırdı. Bu mənada ki, o, müharibəni Makedoniya ərazisində aparmaq istəyirdi. Lakin Filippin ölməsinin və onun oğlu İskəndərin taxta çıxmasını eşitdikdə, Makedoniya tərəfdən rahat oldu. Çünki heç güman etmirdi ki, İskəndər İrana təhlükə törədə bilsin.

88.Tarixi biliklərinizə əsasən mənbədə bəhs olunan iki imperiya arasında baş vermiş döyüşlərin adlarını qeyd edin: (üç döyüş)

89.Mənbədə bəhs olunan görkəmli Kiçik Midiya şahının İskəndər qarşısında mövqeyinin möhkəmlənməsinə səbəb olan iki cəhəti qeyd edin:

90.Filippin ölümündən sonra yeni hökmdarın taxta çıxmasının Əhəmənilər üçün nəticəsini müəyyən edin:

t.me/BirlikTeam1 Kaspi

Kaspi Təhsil Şirkəti – Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam1 kaspi

Kaspi Təhsil Şirkəti – Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam1 kaspi